*Azərbaycan Sərhəd Mühafizəsinin yaradılmasının 97-ci ildönümü*

# DÖVLƏT SƏRHƏD XİDMƏTİNİN HƏRBİ HOSPİTALINDA XİDMƏTİN SƏVİYYƏSİ YÜKSƏKDİR

*Müasir tibbi texnologiyaların tətbiqi istiqamətində uğurlu fəaliyyət göstərən, dünyanın bir sıra qabaqcıl klinikaları ilə əməkdaşlıq əlaqələri yaradan bu hərbi müalicə müəssisəsi ölkəmizdə mülki əhalinin də sağlamlığının qayğısına qalır. Hospitalın keçirdiyi çoxsaylı aksiyalarda sərhədyanı rayonların sakinləri təmənnasız müayinə və müalicə olunurlar.*

***Müsahibimiz Dövlət Sərhəd Xidməti hərbi hospitalının rəisi, tibb elmləri üzrə fəlsəfə doktoru, tibb xidməti polkovnik-leytenantı Kənan Yusif-zadədir.***



**- Azərbaycan Sərhəd Mühafizəsinin yaradılmasının 97-ci ildönümü münasibəti ilə bütün sərhədçiləri ürəkdən təbrik edir, şərəfli peşələrində uğurlar arzulayırıq. Sərhədçilərimiz dövlətimizin sərhədlərinin keşiyində dayanıblar, siz həkimlər isə sərhədçilərin sağlamlığının keşiyindəsiniz. İstərdim ki, söhbətimizə DSX-də tibbi xidmətin təşkili barədə qısa məlumatla başlayaq.**

- Təbrikə görə çox sağ olun. Müstəqil dövlətimizin sərhədlərinin keşiyində şərəflə dayanan, müxtəlif hava və iqlim şəraitində Vətənimizin hüdudlarının toxunulmazlığını təmin edən sərhədçilərin sağlamlığı Dövlət Sərhəd Xidmətində xüsusi önəm verilən məsələlərdəndir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ali diqqət və qayğısı nəticəsində davamlı dinamik inkişafa nail olan Dövlət Sərhəd Xidməti şəxsi heyətə yüksək səviyyəli tibbi xidmət göstərilməsi üçün mövcud imkanlardan səmərəli istifadə edir. Hazırda sərhədçilərin müayinə və müalicə məqsədi ilə ölkənin digər tibb müəssisələrinə müraciət etmələrinə, demək olar ki, ehtiyac yoxdur.

DSX-nin yüksək dağlıq ərazilərdə yerləşmiş sərhəd zastavalarında, bütün hərbi hissə və bölmələrində lazımi tibbi avadanlıq və preparatlarla təchiz olunmuş tibb məntəqələri və ya xəstəxanalar mövcuddur. Şəxsi heyətin sağlamlığı keşiyində çoxsaylı peşəkar mütəxəssislər durublar. Sərhədçilərin tibbi maarifləndirilməsindən tutmuş ən yüksək səviyyədə müayinə və müalicə prosesləri DSX-nin peşəkar həkimlərinin nəzarəti altındadır. Şəxsi heyətin istirahəti, qidalanması, su təchizatı, hamam-camaşırxana xidmətinin təşkili, ərzağın keyfiyyəti diqqət və nəzarətdən kənarda deyil. Dezinfeksiya, dezinseksiya, deratizasiya və çoxsaylı profilaktiki tədbirlər, dispanserizasiyalar, mövsümi müayinələr və müxtəlif vaksinasiyalar vaxtında və yüksək məsuliyyətlə həyata keçirilir.

Sərhədçi zabit və gizirlər, onların ailə üzvləri və əsgərlər DSX-nin müasir tibbi avadanlıqlarla təchiz olunmuş poliklinikasında müayinədən keçir, müasir diaqnostika və müalicə aparatları, rahat və işıqlı palataları olan hərbi hospitalda müalicə olunurlar. Hazırda hospitalın yeni çoxmərtəbəli korpusunun tikintisi davam edir. Qeyd etməliyəm ki, yeni korpusun tikintisi Dövlət Sərhəd Xidmətində aparılan təkmilləşdirmə proseslərinin tərkib hissələrindən biridir. Yeni korpus istifadəyə verildikdən sonra sərhədçilərin tibbi təminatı da, təbii ki, xeyli yaxşılaşacaq.

**- Keyfiyyətli müalicə dəqiq diaqnostikadan asılıdır. DSX hərbi hospitalının texniki təchizatı necədir?**

- Hospitalın müasir tibbi avadanlıqlarla təmin edilməsi daim diqqət mərkəzindədir. Qeyd etməliyəm ki, şöbə və bölmələr dünya standartlarına cavab verən müasir aparatlarla təchiz edilmişdir.

Şüa-diaqnostika bölməsinə kompüter-tomoqrafiya aparatı alınaraq müayinə işinə uğurla başlanılmış, mənəvi cəhətdən köhnəlmiş rentgen aparatı müasir cihazla əvəz olunmuşdur ki, bu da diaqnostikanın keyfiyyətini artırmağa imkan vermişdir.

Yeni ekspert tipli USM aparatının alınması yüksək səviyyəli ultrasəs müayinəsinin aparılmasına şərait yaratmışdır. Üç növ ötürücünün əldə edilməsi, toxuma harmoniyası, toxuma rənglənməsinin optimallaşdırma rejimlərinin, həmçinin rəngli, spektral, energetik doppler rejimlərinin olması, görüntünün arxivləşdirilməsi, "kino-ilgək" rejimindən istifadə edərək görüntünü sonradan izləmək imkanı keyfiyyətli diaqnostikaya geniş imkan yaratmışdır. Diaqnostikanın daha dəqiq aparılması üçün exokardioqrafiya, monitorla təchiz edilmiş qastroskop, elektroensefaloqrafiya, kolonoskop, endoskopları avtomatik yuma maşını tətbiq edilir.

Hormon və infeksiyaların yoxlanması üçün İFA aparatının, biokimyəvi və hemotoloji analizatorların, müasir binokulyar işıq mikroskoplarının, koaqulometr, sentrofuqa və termostatların alınması laboratoriya bölməsinin işini müasir standartlar səviyyəsinə qaldırmışdır. 2005-ci ildə poliklinikanın açılması və 2011-ci ildən hospitalın şöbəsi kimi fəaliyyət göstərməsi tibbi xidmətin səviyyəsini daha da yüksəltməyə şərait yaratdı.

Eyni zamanda, müalicə işində də bir sıra yeniliklər, nailiyyətlər əldə edilmişdir.

Hərbi hospitalın anesteziologiya-reanimatologiya bölməsində 2005-ci ildən regionar anesteziya-spinal, peridural anesteziyaların tətbiqinə də başlanılmışdır. Kardiomonitorların tətbiqi anesteziya zamanı xəstələrin monitor müşahidələrinin aparılmasını reallaşdırmış, yeni anestetiklərin tətbiqi dərmanların əlavə təsirlərini azaltmışdır.

Hospitalda 2008-ci ildən laparoskopik əməliyyatların icrasına başlanılmışdır. Hazırda hospitalda bir sıra açıq, laparoskopik, həm də endoskopik əməliyyatlar uğurla həyata keçirilir. Hospitalın fizioterapiya bölməsinə fizioterapiya kombaynı, traksion modul, ultrasəs, elektro və işıq aparatlarının verilməsi isə reabilitasiya proseslərini həm sürətləndirmiş, həm də keyfiyyətini artırmışdır.

Hospitalda invaziv endoskopik əməliyyatlar 2009-cu ildən etibarən aparılır və hazırda mədə-bağırsaq sisteminin, öd yolları xəstəliklərinin müalicəsində uğurla tətbiq olunur.

2011-ci ildən klinik proseslərin tənzimlənməsi, qanköçürmə, patoloji-anatomiya, xəstə qəbulu və təcili yardım, onkologiya, şüa-diaqnostika, sanitar-epidemioloji bölmələri yaradılmış, hospitala yeni mütəxəssislər cəlb edilmişdir. Müəssisəmizdə uroloji xəstələrin müayinəsində sistoskopun tətbiqinə başlanmışdır.

Qanın ultrabənövşəyi şüalarla şüalandırılması septiki vəziyyətlərdə, peritonitlərin, gec sağalan iltihablı proseslərin, hepatitlərin kompleks müalicəsində nəzərə çarpan uğurların əldə edilməsinə şərait yaratmışdır. Yeni süni ağciyər ventilyasiyası aparatları alındıqdan sonra anesteziya yarımaçıq konturda deyil, yarımqapalı konturda aparılır.

Son illər ginekologiya sahəsində də yeniliklər tətbiq olunmaqdadır. Belə ki, histerosalpinoqrafiya (boruların rentgenlə yoxlanması), kolposkopiya (uşaqlıq boynunun müayinəsi), tam həcmdə laporoskopik-ginekoloji əməliyyatlar və əməliyyat zamanı boruların keçiriciliyinin yoxlanılması, inseminasiya, süd vəzilərinin müayinə və müalicəsi uğurla aparılır.

**- Dövlət Sərhəd Xidmətinin hərbi hospitalında 3D texnologiyasının tətbiqi ilə əməliyyat aparılması barədə mətbuatda məlumat yayılmışdı. Bu barədə qəzetimizin oxucularına məlumat verməyinizi xahiş edirik.**

- 3D texnologiyasının hərbi hospitalımızda tətbiqi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ali diqqət və qayğısı sayəsində Dövlət Sərhəd Xidmətində uğurla aparılan təkmilləşdirmə proseslərinin, ölkəmizin dünyanın qabaqcıl dövlətlərinin səhiyyə müəssisələri ilə uğurlu əməkdaşlığının çoxsaylı nəticələrindən biridir.

Hospitalımızda tibb elminin yeniliklərinin, yeni tibbi texnologiyaların və qabaqcıl təcrübənin tətbiqinə xüsusi diqqət yetirilir. Təchizatın yüksək səviyyədə olmasının və müasir avadanlıqların alınmasına göstərilən diqqətin nəticəsidir ki, bəzi tibbi əməliyyatlar ölkəmizdə ilk dəfə məhz bizim müəssisəmizdə aparılır. Respublikamızda ilk dəfə olaraq 2008-ci ilin iyun ayında laparoliftinq üsulu ilə laparoskopik xolesistektomiya əməliyyatı, 2013-cü ilin yanvar ayında isə tək delikdən laparoskopik öd kisəsinin çıxarılması əməliyyatı icra olunmuşdur.

2015-ci il iyul ayının 23-də hərbi hospitalımızda "Olymrus 190-eksera" aparatı vasitəsi ilə, 3D texnologiyası əsasında xüsusi eynək və alətlərdən istifadə etməklə regionumuzda ilk dəfə sterotoksik laparoskopik əməliyyat - öd kisəsinin çıxarılması uğurla həyata keçirilmişdir.

**- Xahiş edirik dünyanın qabaqcıl dövlətlərinin səhiyyə müəssisələri ilə əməkdaşlıq barədə bir qədər geniş məlumat verəsiniz.**

- Qabaqcıl beynəlxalq təcrübənin öyrənilərək tətbiq edilməsi istənilən sahədə uğurların qazanılmasında özünəməxsus rol oynayır. Beynəlxalq əməkdaşlıq üçün ölkəmizdə yaradılmış münbit şəraitdən bəhrələnən Dövlət Sərhəd Xidməti də dünya dövlətlərinin müvafiq qurumları ilə qarşılıqlı faydalı əlaqələr yaratmışdır. Bu istiqamətdəki fəaliyyət bizim müəssisəmizdə də xidmətin səviyyəsinin yaxşılaşdırılmasına müsbət təsir edir. Mütəxəssislərimizin xarici ölkələrdə keçirilən treninqlərdə, ixtisasartırma kurslarında, simpoziumlarda iştirakına göstərilən diqqət müsbət nəticələr verir. Eləcə də ölkəmizdə konfranslar, forumlar, toplantılar keçirilir. Məsələn, Dövlət Sərhəd Xidmətinin təşkilatçılığı ilə 2013-cü ilin mart ayında ölkəmizdə ilk dəfə beynəlxalq hərbi cərrahlar simpoziumu keçirildi. Belarus, Xorvatiya, Fransa, Rusiya, Türkiyə, Amerika Birləşmiş Ştatları, Almaniya, Finlandiya və Şri-Lankanın yüksək ixtisaslı mütəxəssislərinin qatıldıqları simpoziumda ölkəmizin çoxsaylı tibb müəssisələrinin mütəxəssisləri də iştirak etdilər.

Dövlət Sərhəd Xidmətinin rəisi - Sərhəd Qoşunlarının Komandanı general-polkovnik Elçin Quliyev simpoziumda çıxış edərək tədbirin aktuallığını yüksək qiymətləndirdi, simpoziumun işinə uğurlar arzuladı. Simpoziumda hərbi cərrahiyyənin tədris prinsipləri, təlim sistemi və perspektivləri, dünyada qlobal cərrahi proqramlar və ictimai mübadilə, inkişaf etmiş ölkələrdə hərbi cərrahların hazırlanmasının təhsil metodları, odlu silahdan yaralananların, həmçinin təbii fəlakətlər nəticəsində xəsarət alanların cərrahi müalicəsi, hərbi münaqişələrdə cərrahi xidmətin göstərilməsi üsulları və bu sahədəki yeniliklər müzakirə olunmuş, hərbi münaqişələr və təbii fəlakətlər zamanı cərrahi müalicə sahəsində əldə olunmuş qabaqcıl təcrübənin mübadiləsi aparılmışdır. Simpozium işğala məruz qalmış ölkəmizin həkimləri üçün faydalı oldu. Xüsusən, ABŞ-dan olan cərrahın gətirdiyi maketlər üzərində praktiki məşğələlər keçirildi. 4 gün ərzində hərbi və mülki həkimlər öz bilik və təcrübələrini təkmilləşdirdilər.

Dünya Beynəlxalq Cərrahlar Cəmiyyəti və Ambroaz Pare adına Beynəlxalq Hərbi Cərrahlar Forumu ilə hospitalımızın cərrahları arasında sıx əlaqələr mövcuddur. 2015-ci ildə Dünya Beynəlxalq Cərrahlar Cəmiyyətinin Tailandda keçirilən 46-cı konqresində mən Ambroaz Pare adına Beynəlxalq Hərbi Cərrahlar Forumunun 2017-2019-cu illər ərzində prezidenti seçilmişəm.



Təxminən bir ay əvvəl Avropanın ən qabaqcıl tibb müəssisələrindən biri olan İspaniyanın Navarra Universitetinin klinikasına səfər etmişdim. Klinikada tibbi xidmətin təşkili, həkim və tibb işçilərinin əldə etdikləri qabaqcıl təcrübə ilə maraqlandım və yaxından əməkdaşlıq əlaqələrinin qurulması barədə razılığa gəldik. Bu klinikada öyrənilləsi və bizim hospitalımızda da tətbiq ediləsi məsələlər çoxdur.

**- Həkimlərinizin ixtisaslarının artırılması məsələsinə toxundunuz. Hospitalınızda xidmət edən tibbi heyətin peşəkarlıq səviyyəsi necədir?**

- Tibb işçilərinin peşəkarlıq səviyyəsinin daim artırılması xüsusi diqqət mərkəzindədir. Çünki peşəkarlıq bütün fəaliyyət növünün özəyini təşkil edir. Məncə, səhiyyə peşəkarlığın ən çox tələb olunduğu sahələrdəndir. İnsanların sağlamlığı ilə qeyri-peşəkarlar məşğul olmamalıdırlar.

Kollektivimizdə öz işini mükəmməl bilən həkimlərimiz çoxdur. Deyim ki, hospitalımızda tibb elmləri üzrə alimlik dərəcəsi almış üç həkimimiz var. Həkimlərimizin ikisi "Azərbaycan Respublikasının əməkdar həkimi" kimi fəxri ad daşıyır. Lakin peşəkarlıq, ixtisas artırmaq elə məsələdir ki, onun son həddi yoxdur. Hər bir insan, o cümlədən də həkimlər daim öyrənməli, tibbi yeniliklərdən, yeni metodlardan, hər hansı bir xəstəliyin yeni simptomlarından, məsələn, simptomların sinonimliyindən və s. xəbərdar olmalıdır.

Son illər onlarca sərhədçi həkim xarici ölkələrdə ixtisasartırma kurslarında və treninqlərdə iştirak etmişdir. DSX hərbi hospitalı Türkiyənin Gülhanə Əsgəri Tibb Akademiyası ilə yaxından əməkdaşlıq edir. Hər il akademiyanın bir neçə aparıcı mütəxəssisi hospitalımıza gələrək seminarlar keçirir, hospitalın həkimləri ilə təcrübələrini paylaşaraq fikir mübadilələri aparırlar. Hospitalın bir neçə əməkdaşı Gülhanə Əsgəri Tibb Akademiyasına ixtisasartırma kurslarına göndərilmişdir və bu kursların mütəmadi olaraq təşkil edilməsi planlaşdırılır.

Yeri gəlmişkən onu da deyim ki, hospitalımızda qazandığımız bilik və təcrübənin digər həmkarlarımızla bölüşdürülməsi, mövcud tibbi imkanlarımızdan digər hərbi və mülki həkimlərimizin də bəhrələnməsi istiqamətində də iş aparılır. Hazırda hospitalımızın rezidentura bazası kimi təsdiq olunması istiqamətində respublikamızın müvafiq nazirlik və qurumları ilə aparılan iş başa çatmışdır. Hospitalımızın rezidentura bazası kimi təsdiq olunması həm ölkəmizin səhiyyə sistemində bizim nüfuzumuzdan xəbər verir, həm də kollektivimizin və bütövlükdə Dövlət Sərhəd Xidmətinin üzərinə böyük məsuliyyət qoyur. Hospitalımızda 11 ixtisas üzrə rezidentura təhsilinin verilməsi nəzərdə tutulur. Bu isə o deməkdir ki, Dövlət Sərhəd Xidmətinin hospitalı ölkəmizdə yüksək ixtisaslı həkimlərin hazırlanmasında və bununla da milli səhiyyəmizin inkişafında, mulki əhalinin müalicəsində özünəməxsus rol oynayacaqdır.

**- Mülki əhalinin müalicəsindən söz düşmüşkən, hospitalınızın həkimlərinin sərhədyanı rayonların sakinlərinin müayinə və müalicəsində iştirakı barədə məlumatlar var. Bu barədə nə deyə bilərsiniz?**

- Dövlət Sərhəd Xidməti sərhədyanı rayonların sakinlərinin problemlərinə biganə qalmır. Sərhədçilər dövlətimizə, millətimizə etdikləri şərəfli xidməti daim mülki əhalinin yanında olmaqla, onların qayğı və problemləri ilə maraqlanmaqla və müvafiq köməklikləri göstərməklə tamamlayırlar.

Bilirsiniz ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən Dövlət Sərhəd Xidmətinin rəisi - Sərhəd Qoşunlarının Komandanı cənab general-polkovnik Elçin Quliyev də sərhədyanı rayonlarda vətəndaşlarla görüşlər keçirir, onların təklif, şikayət və rəylərinin öyrənilməsi, qanuni tələblərinin yerinə yetirilməsi istiqamətində müvafiq tədbirlər görülür. Bu görüşlər zamanı vətəndaşların Dövlət Sərhəd Xidmətinə aid olmayan məsələlər barəsində də müraciətlər etmələri təbii qarşılanır. Çünki vətəndaşlar bilirlər ki, sərhədçilər onların heç bir probleminə biganə qalmayacaqlar. O cümlədən onların müayinə və müalicə barəsindəki müraciətləri daim xüsusi həssaslıqla qarşılanır. Bu qəbullar zamanı edilən müraciətlərə əsasən 70-dən çox vətəndaş təmənnasız olaraq müayinədən keçirilmiş, lazımi müalicələr aparılmış, 20-dən çox vətəndaş əməliyyat olunmuşdur.

Qeyd olunmalıdır ki, sərhədçi həkimlər sərhədyanı rayonların və kəndlərin sakinlərinin sağlamlığının qayğısını daim çəkməyə hazırdırlar. Yerli əhali tərəfindən sərhədçi həkimlərə edilən bütün müraciətlər diqqətlə qarşılanır və müsbət həll edilir. Məsələn, xatırlayıram ki, belə bir müraciət Samux rayonunun Poylu kəndinin nümayəndələri tərəfindən olmuşdu. Şəxsi təsərrüfat sahəsində çalışarkən Poylu kəndinin sakinlərindən birini ayağından ilan vurmuşdu. Yaxınlıqdakı yaşayış məntəqələrinin heç birində ilan zəhəri əleyhinə zərdab tapılmadığından sakinlər "Salahlı" sərhəd zastavasına müraciət etmişdilər. Yerli sakinlərin müraciəti ilə bağlı sərhəd zastavasında dərhal lazımi tədbirlər görülmüş, həmin şəxsə ilan zəhəri əleyhinə zərdab vaxtında vurulmuş və gəncin həyatı xilas edilmişdi.

Hərbi hospitalın həkimlər qrupunun Qusar rayonunun Həzrə kəndindəki sərhəd zastavasında humanitar tibbi müayinə və müalicə aksiyası keçirmələrini xatırladım. Həzrə kəndində yaratdığımız səyyar hospitalda rentgen maşını, ultrasəs aparatı və səyyar laboratoriya, cərrah, kardioloq, onkoloq, laborant həkim, həkim-rentgenoloq, ginekoloq fəaliyyət göstərirdi. 22 kəndi əhatə edən aksiyada müalicəyə ehtiyacı olan 363 nəfərə təmənnasız tibbi xidmət göstərildi, xəstələr müvafiq dərman preparatları ilə təmin olundular. 12 nəfər isə Dövlət Sərhəd Xidmətinin hərbi hospitalında uğurla cərrahi əməliyyat edildi.

Hərbi hospitalımızın xüsusi həkimlər briqadası Quba qayonunun Xınalıq kəndində 383 nəfəri, Astara rayonunun Sım kəndində 230 nəfəri, gözdən əlil uşaqlar üçün respublika internat məktəbində 17 şagirdi, Xətai rayonunun 3 saylı uşaq evində 34 uşağı pulsuz müayinə və müalicə etmiş, təyinatlar vermiş, dərman preparatları ilə təmin etmişdir.

Naxçıvan Muxtar Respublikasındakı "Diaqnostika Mərkəzi"ndə hərbi hospitalın 10 nəfərdən ibarət həkimlər briqadası xeyriyyə aksiyası keçirmiş, bir həftə ərzində 17 mürəkkəb cərrahiyyə əməliyyatı aparmış, 40 nəfərə yaxın vətəndaş tam müayinə olunmuş, müvafiq məsləhətlər və təyinatlar verilmişdir. Həmin aksiya zamanı Culfa rayonunun Əlincə kəndinin sakinləri müayinədən keçirilmiş, xəstələrə müalicə təyin olunmuşdur.

**- Maraqlı müsahibə üçün minnətdarlığımızı bildirir, Sizi və bütün sərhədçilərimizi peşə bayramınız münasibəti ilə bir daha təbrik edir, uğurlar arzulayırıq.**

**Müsahibəni qələmə aldı:**
**Zümrüd ABDULLAYEVA,**
**"Respublika".**